ŞUŞA RAYONUNUN MÜASİR TEXNOLOGİYALAR ƏSASINDA TORPAQ XƏRİTƏSİNİN TƏRTİBİ

Nərmin Nəcəfova

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutu, narmin.najaf@hotmail.com

Torpaq səthində yaxşılaşdırma işlərinin aparılması üçün ilkin vacib olan məsələlərdən biri relyef plastikasını nəzərə almaqla torpaq xəritəsinin hazırlanmasıdır.

Dəqiq torpaq işləri təbii, iqtisadi, texnoloji və sosial faktorları nəzərə alaraq becərmə prosesini optimallaşdırmağa və kənd təsərrüfatı bitkilərinin inkişafına nəzarət etməyə imkan verir. Bu baxımdan tərəfimizdən Şuşa şəhərində yayılan torpaq tiplərini öyrənmək üçün coğrafi informasiyalar sistemi (CİS) əsasında Şuşa rayonunun 1:100 000 miqyasında relyef və onun əsasında torpaq xəritəsi tərtib edilmişdir (şəkil 1,2). Ədəbiyyat mənbələrinə əsasən demək olar ki, Şuşa rayonu ərazisində aşağıdakı torpaq tipləri yayılmışdır (cədvəl 1):

Cədvəl 1.

№	Torpağın adı	Sahə (ha ilə)
1	Çimli dağ-çəmən	1141
2	Bozqır dağ-çəmən	13321
3	Yuyulmuş qəhvəyi dağ-meşə	1397
4	Tipik qəhvəyi dağ-meşə	6408
5	Karbonatlı və qismən bozqırlaşmış qəhvəyi dağ meşə	6065
6	Çılpaq qayalıqlar və səthə çıxmış gilli süxurlar	1340

Torpaqların informasiya sistemlərinin yaradılması onlar haqqında mövcud olan zəngin tədqiqat materiallarının sistemli şəkildə, müasir texnologiya əsasında mərkəzləşdirilməsinə əsaslanır. Günümüzdə bir sıra xarici dövlətlər bu proqram təminatından istifadə edirlər. Proqrama həmçinin mülkiyyətçinin torpağı əldə etdiyi tarix, əldə etmə əsası, torpağın kəmiyyət və keyfiyyətcə uçotu, bonitirovkası, ekoloji və iqtisadi qiymətləndirilməsi və s. məlumatlar daxil edilə bilər. CİS bazasında laylar üzrə yığılan informasiya verilənləri effektiv edarə etməyə, torpadan istifadədə baş verən dəyişiklikləri vaxtında qeyd etməyə imkan verir. Ölkəmizdə torpaqla bağlı işlərin böyük əksəriyyətinin ArcGis proqramı ilə həyata keçirildiyini nəzərə alsaq, bu məlumat bazasının yaradılmasında işlərin daha da əlverişli olduğunu görərik.

Alınan nəticələri tərtib etdiyimiz Şuşa rayonunun elektron torpaq xəritəsinin atributiv məlumat bazasına yerləşdirmək torpaqdan istifadəni daha səmərəli və təhlükəsiz edəcəkdir.



Şəkil 1. Şuşa rayonunun relyef xəritəsi



Şəkil 2. Şuşa rayonunun torpaq xəritəsi